

**ZAHİD QARALOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin komissiya sədri

## ELMİ İDARƏETMƏ MƏKTƏBİ

Bir nəfər özünü idarə edir. İki və daha çox insan olanda idarəetməyə ehtiyac yaranır. İnsan yaranandan bu günə qədər idarəetmənin çox müxtəlif formaları yaranıb. Lakin hər idarəetməni **elmi idarəetmə** adlandırmaq olmaz. İdarəetmənin elmi institutunu yaratmaq isə idarəetmə funksiyalarını yerinə yetirən hər adama nəsib olmur. Çünki harada elmilikdən söhbət gedirsə orada hökmən ölçü, ölçmə sistemi və ölçü vahidləri olmalıdır. İdarəetməyə daxil olan ideyalar, strateji planlar, əməli fəaliyyət və onun nəticələrini ölçməyə və obyektiv qiymətləndirməyə imkan yaranmalıdır.

İdarəetmə parametrləri ölçülə bilirsə, idarəedilən obyekt və hadisələrin dayanıqlı inkişaf proqramlarının içrasının vəziyyətini istənilən vaxt ölçmək, təhlil etmək, qiymətləndirmək mümkündürsə, işin icrası başa çatdıqdan sonra ölçmələrin nəticələri ilə inkişaf artımı üst-üstə düşürsə deməli, məqsəd, ideya, yol, icra texnologiyası düzgün seçilmişdir. Başqa sözlə, idarəetmə elmi xarakterlidir.

Əgər müxtəlif layihələri, proqramları həyata keçirmək üçün seçilən ölçülər, icranın metodları idarəedilən obyektləri və prosesləri inkişaf etdirməyə, vəziyyətini daim irəliyə aparmağa imkan verirsə, bu halda elmi idarəetmə institutunun yarandığı barədə qəti fikir söyləmək mümkündür.

Azərbaycanda belə mükəmməl elmi idarəetmə məktəbi yaranmışdır. Bu elmi idarəetmə institutunun müəllifi XX və XXI əsrin ən görkəmli və təkrarsız şəxsiyyətlərindən, müdrik dövlət xadimlərindən biri olan Heydər əlirza oğlu əliyevdir.

Fikrimizi əsaslandırmağa çalışacayıq.

İdarəetmədə həmişə iki tərəf olur: idarəedici və idarəedilən. Cəmiyyətdə idarəedicilər müxtəlif funksiyaları, səlahiyyətləri, bunları normal yerinə yetirmək üçün resurslardan istifadə etmək imkanlarını, idarəedilən sahələrin normal irəlilədilməsinə məsuliyyəti öz üzərinə götürmüş bir və ya bir qrup şəxsdir. İdarəedilən insan, insan qrupları, əmək kollektivləri, milli qurumlar, ölkənin bütün əhalisinin həyat-fəaliyyətini təmin edən proseslər, sahələr, hadisələrdir.

Elmi idarəetmə idarəedicidə müəyyən bacarıqların olmasını tələb edir:

- idarəolunan sahənin (obyektin, prosesin, hadisənin, insan qruplarının, ölkənin)

mövcud durumunu ətraflı təhlil etmək, üstün və çatışmayan məsələləri seçmək, onların səbəblərini öyrənmək, vəziyyəti obyektiv qiymətləndirmək;

- cəmiyyətin inkişaf istiqamətlərini müəyyən etmək, insanların həyat şəraitini aşağı haldan nisbətən yuxarı hala qaldırmaq, dayanıqlı inkişaf yoluna çıxmaq üçün strateji siyasət, proqram və layihələr hazırlamaq;
- strateji siyasətin, proqram və layihələrin reallaşmasını təmin edə biləcək hərəkətverici qüvvələri, resursları, mümkün olan vasitə və amilləri müəyyən etmək;
- kadrların seçilməsi, məsul postlara təyin olunması, onların səlahiyyətlərinin və məsuliyyətinin dəqiq müəyyənləşdirilməsi;
- proseslərin icra mexanizmlərinin işlənməsi, onların işə salınması, proseslərə sistemli və təsirli nəzarət qaydalarının tətbiq edilməsi;
- işin gedişinin vaxtaşırı yoxlanıb təhlil olunması, ümumiləşdirilməsi, işin icra mexanizminin və texnologiyasının səmərəsinin qiymətləndirilməsi, müvafiq korrektələrin aparılması;
- ayrı-ayrı sahələr və bütövlükdə ölkə üzrə hadisələrin gedişi, strateji proqramların həyata keçirilməsinin vəziyyəti barədə xalqı müntəzəm məlumatlandırmaq, obyektiv məlumat vermək, xalqla, müxtəlif sosial və siyasi qruplarla qarşılıqlı əlaqələr qurmaq, məsləhətləşmələr aparmaq, əhali ilə güclü əks əlaqə sistemi yaratmaq, insanları mümkün qədər geniş ölçüdə idarəetmə sistemində fəaliyyətə cəlb etmək.

Bunlar ümumi bacarıqlardır və vəzifənin böyük-kiçikliyindən asılı olmayaraq, idarəçilikdə iştirak iddiasına düşmüş şəxslərin hər biri əvvəlcə özündə belə bacarıqların varlığını axtarmalıdır.

Bunlardan əlavə idarəetmədə elə bilik, bacarıq və vərdişlər də olur ki, onlar xüsusiyyət təşkil edir, müəyyən qrup idarəedicilərin fəaliyyətinin səmərəsinin artmasına kömək göstərir.

İdarəetmə nəzəriyyəsi və təcrübəsinə aid çox dəyərli tədqiqatlar aparılıb, dissertasiyalar müdafiə olunub, əsərlər çap edilib. Lakin bu sahədə öyrənilməmiş məsələlər öyrənilənlərdən daha çox olduğuna görə həmişə aktuallığını saxlayır.

İdarəetmə nəzəriyyəsinə görə idarəetmə iki cürdür: obyektiv və subyektiv.

**Əgər idarəetmənin əsasında hərəkət prinsipi dayanırsa, bu halda idarəetmə obyektivdir.**

Obyektiv idarəetmə **saxlanma** və dəyişmə qanunları ilə həyata keçirilir.

**Əgər idarəetmədə heç bir elmi prinsip, saxlanma və dəyişmə qanunları yoxdursa, bu halda idarəetmə subyektivdir.**

Obyektiv idarəetmə obyektiv qanunlara əsaslandığından nəticəsi həmişə qələbə, subyektiv idarəetmə obyektiv qanunlarla ziddiyyət təşkil etdiyinə görə məğlubiyyətlə nəticələnir.



Tarixən kiçik və böyük dövlətləri, imperiyaları idarəedən şəxsiyyətləri fəaliyyətlərinin nəticəsinə əsasən üç qrupa bölüblər:

- dövlətin, xalqın hərtərəfli inkişafının, ekoloji tarazlığın saxlanmasının qeydinə qalanlar, quruculuq və yaradıcılıqla məşğul olanlar, sülhü, əmin-amanlığı qoruyanlar;
- hakimiyyətləri dövründə ölkəni və xalqı bir haldan başqa hala keçirməyə - tərəqqiyə nail olmayanlar;
- ölkəni, xalqı ağır vəziyyətə salanlar, müharibələr törədənlər, günahsız insanların ölümünə bais olanlar, dağıdıcılar.

Heydər Əliyevin idarəetmə sisteminin əsasında obyektiv qanunlar – hərəkət prinsipi dayandığından idarəetdiyi bütün sahələrdə və bütün dövrlərdə yalnız qələbə əldə olunmuşdur. Ona görə o, birinci qrup dövlət başçıları sırasındadır.

Heydər Əliyev əlli ildən çoxdur ki cəmiyyət həyatının müxtəlif sahələrinin, müxtəlif tərkibli kollektivlərin, dövlətlərin idarəedicisi kimi fəaliyyət göstərib. Yüksək vəzifəli rəhbər kimi uzun müddət Milli Təhlükəsizlik Nazirliyi sistemində çalışıb. Bu qapalı sistemdə öz bilik və bacarığına görə pillə-pillə irəliləyərək, nəhayət ilk azərbaycanlı kadr kimi həmin sistemin Azərbaycan Respublikası üzrə Komitəsinin sədri vəzifəsinə yüksəlməsi faktı onun obyektiv idarəedicilik bacarığına malik olmasını birbaşa təsdiqləyir.

1969-cu ilin iyulunda Heydər Əliyevin həmin vəzifədən daha yüksək və məsul vəzifəyə - Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi seçilməsi, onun birsahəli sistemdən çoxsahəli sistemə rəhbərlik etmək potensialının varlığına inamdan yaranmışdı.

Artıq, Heydər Əliyev yalnız dövlətin, millətin təhlükəsizliyinin təmin olunmasına deyil, Azərbaycan Respublikasının bütün sosial-siyasi sisteminin qorunub saxlanmasına və inkişafına məsuliyyət daşımalı oldu. O, eyni zamanda SSRİ-ni idarə edən Sov. İKP MK Siyasi Bürosunun tərkibinə seçildi. Deməli, həm Azərbaycan Respublikasını müstəqil idarə etməli, həm də SSRİ-nin idarəolunmasına məsuliyyəti bölüşməli oldu.

Heydər Əliyev AKP MK-nın birinci katibi işlədiyi 1969-1982-ci illər ərzində respublikanın, Azərbaycan xalqının müqəddaratını təyin edən bütün sahələr: sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, elm, təhsil, mədəniyyət, mətbuat, səhiyyə, siyasi və mənəvi mühit, ticarət, iaşə sürətlə inkişaf etdi. Milli kadrların yetişdirilməsi sahəsində köklü dəyişikliklər aparıldı. Milli-mənəvi dəyərlərə qayğı yüksəldildi. Kadrların seçilməsi, bacarıqlarına görə rəhbər vəzifələrə irəli çəkilməsi sistemi yeniləşdirildi. Tapşırılan iş üzrə kadrların məsuliyyəti artırıldı. Geniş əhali ilə qarşılıqlı əlaqələr gücləndirildi. Minlərlə əmək qəhrəmanları yetişdi. Bu illərdə 15 müttəfiq respublika sırasında axırıncı yerlərdə olan Azərbaycan birinci yerə çıxdı.

Heydər Əliyevin respublikanı elmi idarəetmə sistemini yüksək qiymətləndirən SSRİ dövlətinin rəhbərliyi onu Moskvaya – bütövlükdə SSRİ imperiyasının və dünya

sosialist sisteminin birbaşa idarəediciliyinə məsuliyyət daşımağa dəvət etdi. 1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sərdinin birinci müavini işlədiyi müddətdə elm və təhsil, mədəniyyət, nəqliyyat, tikinti və digər sahələrə rəhbərlik ona həvalə olundu. Azərbaycanda elmi idarəetmə təcrübəsini sosialist lagerinin inkişafına tətbiq edən Heydər Əliyev ona tapşırılmış bütün sahələrdə böyük uğurlar qazandı. Bütün bunları postsovet respublikalarının ən görkəmli şəxsiyyətləri bu gün də yüksək minnətdarlıq və hörmətlə xatırlayırlar.

Heydər Əliyevin Azərbaycana rəhbərlikdən SSRİ-yə rəhbərliyə irəli çəkilməsi, onun elmi idarəetmə məktəbinin səmərəliliyinin birbaşa etirafı demək idi.

Heydər Əliyevin:

**Sxem 1.**




Sxemdə göstərilmiş üç mərhələli idarəetmə təcrübəsinin nəticələri:

1) Elmi idarəetmə prinsiplərini məhdud mühitdən daha geniş mühitə tətbiq etdikcə idarəetmə obyektivliyini, səmərəliliyini sübuta yetirməklə yanaşı, universallaşır, dayanıqlı inkişafın fundamental qanununa çevrilir;

2) Elmi idarəetmə sistemi möhkəmləndikcə və onun bəhrəsini insanlar hiss etdikcə bu sistemi yaradan şəxsiyyətin özü də güclənir, nüfuzu artır, riski yüksəlir, özünəinamı möhkəmlənir;

3) İdarəetmə nəzəriyyəsi təkmilləşir, yeni nəzəriyyələrin yaranmasına kömək edir;

4) Hakimiyyətə gələn və ya bu işə hazırlaşan şəxslərin fəaliyyəti üçün örnəyə çevrilə bilir.

Qeyd edək ki, Heydər Əliyevin sovetlər dövründə keçdiyi inkişaf yollarını keçənlər də az olmamışdır. Hətta ondan sürətlə irəliləyənlər də olmuşdur (məsələn, Mixail Qorbaçev və b.). Lakin onların heç biri Heydər Əliyevin qazandığı nüfuzu qazana bilməmiş, bir çoxu sürətlə geriyə yuvarlanmışdır. Ən başlıcası isə, başqalarına örnək ola biləcək irs qoymamışlar. Səbəbi bəllidir: Heydər Əliyev obyektiv idarəetmə məktəbinin, başqaları isə subyektiv idarəetmə təcrübəsinin nümayəndələridirlər.

SSRİ dağıldı. Yerində 15 müstəqil, suveren dövlət yarandı. Onlardan biri də Azərbaycan Respublikasıdır.



Azərbaycan xalqı sosialist sosial-siyasi sistemindən, marksist-leninçi ideologiyadan, qapalı cəmiyyət şəraitindən imtina etdi. Açıq bazar sosial-siyasi sistemini, vətəndaş cəmiyyəti ("açıq cəmiyyət") quruculuğu yolunu seçdi. Milli-mənəvi, ümumbəşəri dəyərlərin və islam mədəniyyətinin sintezindən yaranan ideologiyanı, dünyagörüşünü və azərbaycançılığı qəbul etdi. Beləliklə, cəmiyyətin iqtisadi, siyasi, mənəvi mühiti kökündən dəyişdi. Məhsuldar qüvvələrlə istehsal münasibətləri tamamilə yeni prinsiplərlə tənzimlənməyə başladı. Çoxpilləli mərkəzləşdirilmiş planlı təsərrüfat öz yerini çevik planlaşdırılan təsərrüfata verdi.

Sosialist tipli fövqəl dövlət özünün səlahiyyətlərinin müəyyən hissəsini əksmərkəzləşmə yolu ilə tədricən "yuxarıdan" "aşağılara" ötürməli oldu. Mərkəzləşdirilmiş və bütövlükdə dövlətə məxsus olan mülkiyyət, əmlak üç yerə bölündü: dövlət mülkiyyəti, şəxsi mülkiyyət, bələdiyyə mülkiyyəti yarandı. Mülkiyyətə sahiblikdə, sərəncamçılıqda və istifadədə hər üç forma eyni hüquqa malik oldu.

Cəmiyyətin həyat-fəaliyyətinin bütün sahələrində idarəetmə prinsipləri və metodları, yeni məqsədlərə uyğun şəkildə dəyişdi.

İlk baxışda belə təsəvvür yarandı ki, sosialist dövrünün idarəediciləri artıq yeni ictimai-siyasi sistemi idarə edə bilməyəcəklər.

Həyat belə düşüncələrin əsassızlığını sübut etdi. Heydər Əliyev 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, 1993-cü ilin iyununda Milli Məclisin sədri seçildi. Həmin ilin oktyabr ayında Azərbaycan xalqı ona yenidən yüksək etimad göstərərək müstəqil respublikamızın Prezidenti kürsüsünə layiq bildi.

Heydər Əliyevə xalqın belə qayğısı, hörməti, inamı, etibarı faktik olaraq onun uzun illər Azərbaycanda və Moskvada yaratdığı obyektiv idarəetmə məktəbinə dərin inamından irəli gəlmişdir. Xalqın bu seçimi əliyevin idarəetmə məktəbinin xalq tərəfindən yenidən etirafı, obyektiv idarəetmə qanunlarının varlığının təsdiqi idi.

H.Əliyev ölkə Prezidenti kimi xalqın etimadını doğrultmaq məqsədilə 1993-1995-ci illərdə böyük fədakarlıq göstərdi. Son dərəcə ağır və mürəkkəb daxili və xarici mühit şəraitində yeni – açıq bazar sosial-siyasi sistemə keçidə başladı. Açıq bazar və açıq cəmiyyət qanunları əsasında ölkədə əsaslı dəyişikliklərin həyata keçirilməsinə nail oldu.

Sosialist sistemindən azad olmuş keçmiş ittifaq dövlətlərində gedən yenidənqurma fəaliyyəti ilə müqayisədən xalq aydın dərk etdi ki, Azərbaycan onlara nisbətən keçid dövrünü daha az ağrılı keçir, respublika bütün sahələrdə onların önündə irəliləyir. Səbəbi H.Əliyevin yaradıcılığının məhsulu olan obyektiv idarəetmə qanunlarının böyük ustalıqla yeni şəraitə tətbiqinin nəticəsidir.

Buna görədir ki, xalq 1995-ci ildə H.Əliyevi yekdilliklə təkrar Azərbaycanın Prezidenti seçdi. Bu seçim faktik olaraq H.Əliyevin bazar iqtisadiyyatı və açıq cəmiyyət şəraitində obyektiv idarəetmə məktəbinin fundamental qanunlarının xalq tərəfindən yüksək qiymətləndirməsi deməkdir.

İdarəetmə nəzəriyyəsində belə bir müddəa var: dövlətin elmi idarəedicisi o şəxs sayılır ki, onun idarəçiliyinin səmərəli və keyfiyyətli olması, cəmiyyətin inkişafına təkan verməsi barədə həqiqətlər təkcə öz ölkəsində deyil, digər ölkələrdə də etiraf olunur, müsbət qiymətləndirilir. Onun yaratdığı elmi idarəetmə institutunun təcrübəsinə başqa ölkələrin idarəedicilərі də istinad edir və müvəffəqiyyət qazanır.

Bir ölkədə özünü doğrultmuş elmi idarəetmə təcrübəsi başqa ölkələrin xüsusiyyətlərini nəzərə almaqla, tətbiq edilərək müsbət nəticə verərsə, deməli, obyektiv idarəetmə qanunları kəşf olunmuşdur. Obyektiv qanunlar isə müəyyən şərtlər, ölçülər daxilində istənilən ölkədə tətbiq oluna bilər və müsbət nəticələr verər.

Məlum olduğu kimi, cəmiyyəti idarəetmə qanunları o zaman qəbul olunur və istifadə edilir ki, onun tətbiqi cəmiyyətdə dayanıqlı və dinamik inkişafa doğru aparsın.

Heydər Əliyevin yaratdığı elmi idarəetmə məktəbinin formalaşdırdığı qanunların tətbiqi tərəqqi ilə nəticələndiyinə görədir ki, dünyanın bir sıra ölkələrinin təcrübəli dövlət xadimləri, alimlər, siyasi xadimlər bu məktəbi və onun banisi Böyük Heydər əliyevi qurucu, yaradıcı, elmi idarəedici şəxs kimi yüksək qiymətləndirir, ondan öyrənməyi şərəf sayırlar.

ABŞ, Türkiyə, Böyük Britaniya, Rusiya, Almaniya, Yaponiya, Fransa, İtaliya, İspaniya, Hollandiya, Niderland, Ukraina, Gürcüstan, Bolqariya, Rumıniya, Polşa, Moldova, Səudiyyə ərəbistanı, İran və onlarla başqa ölkələrin dövlət başçılarının Heydər Əliyevin fəaliyyətini yüksək qiymətləndirmələri, onun elmi idarəçiliyinin yüksək keyfiyyəti olmasını etiraf etmələri, şəxsiyyətinə dərin rəğbət bəsləmələri yuxarıda deyilənlərə sübutdur.

Heydər Əliyevin elmi idarəetmə sisteminin əsasını 9 elmi prinsip təşkil edir.

1. Cəmiyyətin həyatında həlli mümkün olmayan problem yoxdur, hər şey həlledilə biləndir. Mümkün olmayanı mümkün olan vəziyyətə gətirmək üçün onun bütün parametrlərini araşdırmaq, bir ölçüyə gətirmək və düzgün ölçmək lazımdır.

2. Elmi əsası olmayan qərar bütövlükdə idarəetmənin səmərəsinə və keyfiyyətinə mənfi təsir göstərir.

3. İstənilən strateji layihənin, proqramın tətbiqinin mümkün nəticələri əvvəlcədən düzgün ölçülməzsə islahat gözlənilən səmərəni verməz.

4. Ölkə və regionlar üzrə islahatlara aid olan layihələr, proqramlar **insan-təbiət-cəmiyyət** sisteminin sabit və dayanıqlı inkişafına xidmət göstərməlidir.

5. Ölkədə aparılan bütün islahatların ali məqsədi insana xidmət mədəniyyətini artırmaqdır. İslahatların son nəticəsi hər bir vətəndaşın maddi və mənəvi tələbatının maksimum ödənilməsi, insanın dəyərinin artırılması və normal inkişafı, yüksəlişi üçün daha əlverişli şəraitin və bərabər imkanların təmin olunmasıdır.

6. Təkrar istehsal edilən və təbiətdən hazır götürülən bütün sərvətlərdən, resurslardan tələbata münasib səmərəli istifadə etməklə ölkədə maddi və mənəvi sərvətlərin sabit artımına və fərdlərin, ailələrin, ölkə vətəndaşlarının yüksələn xətt üzrə inkişafına nail olmaq mümkündür.



7. Əksəriyyət tərəfindən qəbul olunan fərdi, qrup, milli, ümumbəşəri olanların hamısı qiymətləndirilməli, qorunmalı, səmərəli istifadə edilməli və onların daha da inkişaf etdirilməsinə bərabər imkan yaradılmalıdır.

8. İnsanların gücündən, təbii sərvətlərdən, resurslardan, vaxtdan səmərəli istifadə etmək.

9. "İnsan-cəmiyyət", "cəmiyyət-təbiət mühiti", "insan-təbiət" münasibətlərinin elmi əsasda qurulması. "İnsan-cəmiyyət-təbii mühit" sisteminin inkişafına kompleks yanaşma.

Hesab etmirik ki, H.Əliyevin elmi idarəetmə məktəbinin elmi prinsiplərini tamam üzə çıxara bilmişik. Bu, bizim ilk ümumiləşdirməmizin təxmini nəticəsi kimi qəbul edilməlidir.

Ümumiləşdirmələrimizin əsasını Heydər Əliyevin 1-ci sxemdə və aşağıda göstərəcəyimiz 2-ci sxem üzrə hərəkəti zamanı baş vermiş və inkar olunmaz inkişaf, tərəqqidir.

Yeni ictimai-siyasi sistemdə - açıq bazar və vətəndaş cəmiyyəti şəraitində H.Əliyevin dövlət idarəçiliyində tutduğu vəzifələrin sxemi:

Sxem 2.




1-ci sxemdə göstərildiyi kimi, ikinci sxem üzrə H.Əliyevin inkişafının mənbəyi özünün daxili yetkinliyi, başqa dövlət idarəedicilərdən keyfiyyətcə fərqləndirən bilik, bacarıq və vərdişlərə sahib olmasıdır. Bunlardan seçə bildiyimizi təqdim edirik.

- Daha mürəkkəb məsələləri həll etmək üçün müxtəlif mənbələrdən daxil olan informasiyaları hərtərəfli təhlil etmək, inteqrallaşdırmaq, real vəziyyəti üzə çıxarmaq.
- Görüləcək işin layihəsini, proqramını hazırlayarkən və həyata keçirərkən əvvəlcədən belə suallara cavab axtarır və tapır: Niyə Nə üçünə Nə Kimə Necə Nə qədərə Nə zamanə Harada Beləliklə, işin məqsədi, səbəbi, obyekti, subyekti, qaydası (metodikası, texnologiyası), ölçüsü və dəyəri, məkanı və görülmə vaxtı müəyyənləşdiriləndən, nəzəri cəhətdən ilkin əsaslandırılandan sonra işə başlamaq.

- Hadisələrə kompleks yanaşmaq, onların daha optimal həlli yollarını tapmaq.
- Qərar qəbul etməzdən əvvəl mütəxəssislərlə, təcrübəli insanlarla, vəzifəli şəxslərlə məsləhətləşmək.
- Bir sahədə əldə olunmuş bilik və bacarıqları başqa sahələrdə və şəraitlərdə yaradıcı tətbiq etmək.
- Dövlətin, əhalinin inkişaf etdirilməsi məsuliyyətini öz üzərinə götürmək, etimadı doğrultmaq üçün mövcud imkanları genişləndirmək, strateji layihələrin hazırlanıb həyata keçirilməsinə insanları çox geniş ölçüdə səfərbər etmək.
- Məsələlərin, problemlərin müəyyənləşdirilməsi və onların daha obyektiv həll olunması istəyi ilə alternativ yollar axtarmaq.
- İnsan-təbiət-cəmiyyət sisteminin bir mərhələdən daha yüksək mərhələyə doğru inkişafına səbəb olacaq ideyaların, prinsiplərin, fakt və hadisələrin, resursların daimi axtarışı və tətbiqi.
- Dünyada gedən iqtisadi inteqrasiyada, qloballaşma prosesində ölkəmizin fəal iştirakının təmin olunması üzrə ardıcıl tədbirlər görmək.
- Tapşırılmış iş üçün şəxslərin üzərinə məsuliyyət qoymaq, onu doğrultmağa normal şərait və imkan yaratmaq. Hesabat tələb etmək, fəaliyyəti obyektiv qiymətləndirmək.
- Ölkənin aparıcı sahələri üzrə sistemləri idarə edə biləcək kadr fondunu daim zənginləşdirmək, onların elmi idarəetmə elminə mükəmməl yiyələnmələrinin qayğısını çəkmək.
- Bütün qərarları, göstərişləri cəmiyyətdə, təbiətdə və insan təfəkküründə fəaliyyət göstərən saxlanma və tarazlıq qanunlarını nəzərə almaqla vermək.
- Hər bir vətəndaşın, bütün insanların özünüifadəsinə, cəmiyyətə açıqlanmasına bərabər imkanlar yaratmaq.
- Azərbaycanın Konstitusiyasına, qanunlarına, Respublika Prezidentinin fərmanlarına və qərarlarına, milli mədəniyyətə və mənəviyyətə zidd olmayan, insanlara, ölkəyə fayda verə bilən fəaliyyət növlərinə tam müstəqillik şəraiti təmin etmək. “Ölkəyə, insanlara, ictimai mühitə, mənəviyyətə zidd olmayan hər bir fəaliyyət məqbuldur“ prinsipini həyata keçirmək.

Qeyd etməliyik ki, kadrların irəli çəkilib yüksək vəzifələrə təyin olunması, onların H.Əliyevlə çiyin-çiyinə müəyyən müddət işləməsi həmin adamların H.Əliyevin elmi idarəetmə məktəbinə mənsub olması demək deyildir. Bunu H.Əliyevin özü də dəfələrlə etiraf edib bildirmişdi ki, onun etimad göstərərək irəli çəkdiyi, yüksək vəzifələrə layiq bildiyi insanların bir çoxu nəticədə etibarsız çıxdı, sadiq qalmadı.

Biz isə belə hesab edirik ki, müəlliminə, rəhbərinə sadiq qalmayanlar H.Əliyevlə bir yerdə işləsələr də, işlədikləri müddətdə daim onun şərəfinə tərifli sözlər deyənlərin heç biri H.Əliyevin elmi idarəetmə məktəbini öyrənə bilməmişdi. Sadəcə, subyektiv idarəedicilər olmuşdular.



Elmi məktəbi bilmək, onu qəbul etmək, nəticə etibarilə əqidə məsələsidir. Kim bu məktəbi kor-koranə keçibsə onun saf əqidəliliyindən söhbət gedə bilməz. Belələri situasiya dəyişən kimi əqidələrini də dərhal dəyişirlər.

Elmi məktəbi mükəmməl keçənlər isə situasiya dəyişəndə əqidəsini deyil, iş üsulunu və metodlarını dəyişir, əvvəlki bilik və bacarıqlarını yeni situasiyanın prinsiplərinə uyğun şəkildə yeniləşdirir, fəaliyyət göstərir, müəlliminə nankor çıxmır. Heydər Əliyevin özü kimi, əvvəl qazandığı bilik və bacarıqları yaradıcı surətdə yeni sosial-siyasi mühitin tələblərinə, qanunlarına uyğunlaşdırır. Bu, yaradıcılıq, quruculuq fəaliyyəti üçün ən gözəl keyfiyyətdir.

H.Əliyevin elmi idarəetmə institutunu öyrənmək üçün müəyyən bacarıqlar və fəaliyyət formaları tələb olunur. Onlardan:

- Elmi olan biliklərlə elmi olmayan, adi bilikləri bir-birindən seçmək və elmi olanları mənimsəmək;
- Yeni bilikləri köhnədən seçmək, yeniləri mənimsəmək, köhnələrin yeni şəraitə uyğun olanlarını və yeni məqsədəuyğun təkmilləşdirilməsi mümkün olanları yenilərə qatıb səmərəli istifadə etmək, vaxtı keçmişlərdən ayrılmaq, onları tarixin yaddaşında saxlamaq;
- Hamı üçün vacib olanlarla, vacib olmayanları bir-birindən fərqləndirmək, işdə nəzərə almaq;
- İdarəetmədə tutulan vəzifənin kecici, elmi bilik və bacarıqların daimi yol yoldaşı olması faktını düzgün dərk etmək;
- Alt sistemləri, bunlardan yaranan sistemləri və sistemlərin cəmi olan ümumi sistemləri fərqləndirməyi, onların hər birinin inkişaf xüsusiyyətlərini bilmək, əməli iş zamanı bu xüsusiyyətləri nəzərə almaq;
- Məsələlərin həllinə elmi yanaşmaq, işin nəticələrini obyektiv qiymətləndirmək, lazım gələrsə fəaliyyətin istiqamətini çevik dəyişmək və ya korrektə etmək bacarıqları.

Bunlar dövləti bütövlükdə, yaxud onun əsas sahələrindən birini elmi idarəetməyə hazırlaşmağın ilkin şərtləridir. İlkin şərtləri bacarmaq H.Əliyevin elmi idarəetmə institutuna daxil olmaq deməkdir. İnstitutu ləyaqətlə mənimsəyənlər dövləti müstəqil elmi idarəetməyə namizədlər sayıla bilərlər. Namizədlikdən həqiqi rəhbərliyə gəlməkdən ötəri əldə olunmuş bilik və bacarıqlarla yanaşı xalqın etimadını da qazanmaq vacibdir. Etimad inamdan doğur. Özünəinam, ailənin inamı, rəhbərlik etdiyin kiçik və böyük kollektivlərin inamı, xalqın inamını qazanmağın zəruri pillələridir. Pillə-pillə yüksəlmək təcrübəsi H.Əliyevin idarəetmə məktəbinin göstəricilərindən biridir.

Yuxarıda deyilənləri ümumiləşdirmək və əyaniləşdirmək məqsədilə **Optimal elmi idarəetmə məktəbinin** sxemləşdirilmiş modelini təqdim edirik (sxem 3.).

İnanıram ki, təqdim olunan sxem Heydər Əliyevin elmi idarəetmə məktəbini öyrənənlərə, eləcə də həmin məktəbin araşdırıcılarına və dövlət, idarəetməsinə meyli, həvəsi olan insanlara əməli kömək göstərəcək.




Sonda etiraf etməliyəm ki, H. Əliyevin dövləti obyektiv idarəetmək məktəbində müxtəlif istiqamətlərdə dərin tədqiqatlar aparılmasını tələb edən çox qiymətli nəzəri və təcrübi məsələlər var. Məqaləmizin belə tədqiqatlara giriş kimi qəbul olunacağına əminəm. Bu mövzuda elmi araşdırmalara marağı olan bütün tədqiqatçılarla məmnuniyyətlə işgüzar əməkdaşlığa hazır olduğumu bildirirəm.

Nəzərə almalıyıq ki, H. Əliyevin bütün nurlu ömrünü həsr etməklə yaratdığı **Ölkənin Elmi İdarəetmə İnstitutu** Azərbaycanın ictimai elm xəzinəsinə ən dəyərli töhfədir.

Heydər Əliyevin yaratdığı **Obyektiv İdarəetmə** nəzəriyyəsi və təcrübəsi mövcud ictimai-siyasi və idarəetmə elmləri üzrə dünya standartlarına tam cavab verdiyinə görə, o təkcə Azərbaycan şəraitində deyil, eyni zamanda digər ölkələrin idarəolunmasında da fayda verər. Deməli, həqiqi elm olduğuna görə ümumbəşəri əhəmiyyət daşıyır.

Bu il ölkəmizdə keçiriləcək Respublika Prezidenti seçkilərində yenə də - üçüncü dəfə Heydər Əliyevin namizədliyini dəstəkləyəcəkləri barədə inamlı çağırışlar onu göstərir ki, xalq özünün milli-mənəvi sərvəti hesab etdiyi obyektiv idarəetmə elminin daha da zənginləşdirilməsini istəyir. Xalqın istəyini elmi idarəetmə məktəbinin banisi - Böyük Heydər Əliyevin özü qədər heç kəs dolğun ödəyə bilməz. Ona görə də onun yenidən Azərbaycan Prezidenti seçilməsi həyati zərurət hesab edilir. Yeni elm yaradanı bu yaradıcılıqdan ayırmaq ən böyük qəbahət sayılır. Xalqımız belə qəbahətə heç vaxt yol verməz.

Heydər Əliyevin elmi idarəetmə məktəbi daim yaşayacaq, zənginləşəcək, XXI əsrdə Azərbaycan xalqının sürətlə tərəqqisinə yeni imkanlar açacaqdır.

Heydər Əliyev Azərbaycanın real tarixini yaradır, eyni zamanda onun həqiqi tarixini yazır. Biz bu tarixi birlikdə yaşayır və öyrənirik.

*17.02.03*